Heydər Əliyev adına Müasir Təhsil Kompleksi

2012-2013-cü tədris ili üçün aşağıda qeyd olunan vəzifələri tutmaq üçün müsabiqə

elan edir:

1. Riyaziyyat kafedrası - müəllim (ingilis dilini bilənlərə üstünlük verilir)
2. Rus dili kafedrası - müəllim
3. Avropa dilləri kafedrası - ingilis dili müəllimi
4. Avropa dilləri kafedrası - laborant
5. Tarix kafedrası - müəllim
6. Fizika kafedrası - müəllim
7. Azərbaycan dili və ədəbiyyat kafedrası - müəllim
8. İbtidai təhsil kafedrası - müəllim - assistent
9. Sinif rəhbəri

Müsabiqədə iştirak etmək istəyənlər ***www.mtk.edu.az*** *saytında qeydiyyatdan keçə bilərlər.*

Əlaqə telefonu: (012)596-71-73

MÜDİRİYYƏT

Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR)

Bakı İstedadlar Təhsil Kompleksinin Bağça və məktəbəqədər təhsil bölməsinə ixtisslı müəllimlərin işə qəbulunu

elan edir:

Bakı İstedadlar Təhsil Kompleksinin Bağça və məktəbəqədər təhsil bölməsinə ingilis dilində tədris etmək qabiliyyətinə malik məktəbəqədər təhsil, ibtidai təhsilin metodikası və pedaqogika üzrə ali təhsilli, pedaqoji sahədə iş təcrübəsinə və uşaqlarla işləmək bacarığı olan müəllimlər dəvət olunur.

Aylıq əməkhaqqı 700-1200 manat təşkil edir.

Əlavə məlumat üçün (012)521-15-77, (012)422-65-31 telefon nömrələrinə zəng edə bilərsiniz.

Bakı İstedadlar Təhsil Kompleksi mütərəqqi bir dünyadır, Bu dünyaya sən də qoşul!

MÜDİRİYYƏT

60 yaş kamillik çağıdır

Qillər ollidən sonrakı yaş dövrünü insanın ağıl, kamal dövrü adlandırırlar. Bu təsadüfi deyil. Çünki insan kamillaşmaya gedən yolun bütün pillələrini ustalıqla addımlamalıdır ki, nəticədə istədiyinə nail ola bilsin. Hər yaş dövrünün öz tələbi, öz meyarı vardır. Bu balans pozularsa insan həyatı da orbitindən çıxmış gəmi kimi yolunu çaşar və bunu düzəltmək sonra çox çətin olar. Ən əsası odur ki, həyanı düzəltmək sonra çox çətin olar. Ən əsası odur ki, həyatın enişli-yoxuşlu yollarında büdrəməyəsən. Əhatəmizdə olanların çox həyat yolunu düzgün seçən və bu seçimi ilə nainki özünə, eyni zamanda yaxınlarına, onu əhatə edənlərə yardımı olan insanlardır. Belə insanlardan biri də ömrünün 41 ilini zəhmətdə keçirən Vidadi İskəndər oğlu Quliyevdir. O, bu şərəfli yolun ilk 5 ilini neft və qazçıxarma müəssisələrində, 36 ilini isə texniki peşə təhsili sistemində çalışmışdır. Vidadi müəllim peşə təhsilinə həsr etdiyi ömür yolundan hər zaman razılıqla danışır, heç vaxt yorulub usanmadığını deyir. Bu, insan üçün çox yüksək keyfiyyətdir. Hər kəs gərək öz işindən zövq alsın, həvəslə işləsin. Onun nəticəsidir ki, Vidadi müəllim respublikamızda peşə təhsilində ən çox iş təcrübəsi olan rəhbər kimi bu gün də 14 nömrəli Bakı Peşə Liseyində direktor vəzifəsində işləyir.

O, ömür yollarını xatırlayarkən böyük bir ailədə dünyaya göz açdığını, həyatındakı bütün uğurlarına zəhmətli və bacarığı sayəsində nail olduğunu deyir. Atası İskəndər Nəsib oğlu Quliyev 1941-1945-ci illərdə Böyük Vətən müharibəsində iştirak etdikdən sonra Vətənə dönərək Gəncə şəhərində təhsil almış, sonra Gədəbəy rayonunun Şınıx kəndindəki kolxozda baş mühəndis vəzifəsində işləyərək el-oba içində böyük hörmət və nüfuz sahibi olmuşdur. O, bədii yaradıcılıqla da məşğul olmuş, şeirlər yazmış və aşıqlıq sənətinin bilicisi olmaqla yaxşı saz çalmağı da bacarmışdır. İskəndər kişi Nabat xanım ilə birlikdə 9 övlad böyüdərək hər birini ailə sahibi etmişdir. Rayonda sayılıb-seçilən, zəhmətkeş bir kişinin ocağında böyüyən gənc Vidadi həmişə ailəsinin şərəf və ləyaqətini uca tutmağa çalışmış və buna nail olmuşdur.

...1952-ci il may ayının 15-də Gədəbəy rayonunun Şınıx kəndində Kollu məhəlləsində zıylamı aləmdə dünyaya göz açan Vidadi Quliyev 1959-cu ildə rayonun Çayrəsullu kənd orta məktəbinin birinci sinfinə qədəm qoymuş və 1969-cu ildə tam orta təhsilini başa vurmuşdur. O, həmin il Bakı şəhərinə gələrək təhsilini Səbail rayonunda yerləşən 23 nömrəli orta texniki peşə məktəbində davam etdirmişdir. 2 ildən sonra məktəbi bitirərək çilingər peşəsinə yiyələnmişdir. 1971-ci ildə 26 Bakı Komissarları adına Neft-Qazçıxarma İdarəsinin neftin nəql edilməsi sexində çilingər kimi əmək fəaliyyətinə başlamışdır.

1972-1974-cü illərdə həqiqi hərbi xidmətdə olmuşdur.

Hərbi xidmətini başa vurduqdan sonra "Xəzər Dəniz Neft Tikintisi" Trestinin mexanizasiya idarəsində qaldırıcı nəqliyyat maşınları üzrə maşinist vəzifəsində işləmişdir.

Vidadi müəllimin təhsilə həvəsi onu tədris sahəsində işləməyə sövq etmiş və o, 1976-cı ildən həyatını texniki peşə təhsili ilə bağlamışdır. O vaxtdan fasiləsiz olaraq ilk peşə-ixtisas təhsili müəssisələrində çalışır. Rəhbərlik onu bacarıqlı mütəxəssis kimi gənc fəhlə kadrlarının hazırlığında iştirak etmək üçün Nərimanov rayonunda yerləşən 81 nömrəli Texniki Peşə Məktəbinə göndərmişdir. O, qüllali kran maşinisti peşəsi üzrə istehsalat təlimi ustası və ixtisas fənn müəllimi vəzifələrində çalışmışdır. 1979-cu ildə Respublika Texniki Peşə Təhsili Komitəsinin rəhbərliyi onu 61 nömrəli Orta Texniki Peşə Məktəbinə təhsil-istehsalat işləri üzrə direktor müavini vəzifəsinə təyin etmişdir. 1985-ci ildə isə o, 14 nömrəli Orta Texniki Peşə Məktəbinə baş usta vəzifəsinə keçirilmişdir.1987-ci ildə 25 nömrəli Orta Texniki Peşə Məktəbinə tədris-istehsalat işləri üzrə direktor müavini vəzifəsinə təyin edilmişdir. 1988-ci ilin may ayında 60 nömrəli Orta Texniki Peşə Məktəbinə müvəqqəti direktor vəzifəsinə təyin olunmuş və rəhbərliyin təşəbbüsü ilə 1988-ci il iyulun 1-dən 80 nömrəli Orta Texniki Peşə Məktəbinə direktor vəzifəsinə göndərilmişdir. 1996-cı ildə Nazirlər Kabinetinin qərarı ilə 80 nömrəli Orta Texniki Peşə Məktəbinin bazasında 14 nömrəli Bakı Peşə Liseyi yaradılmışdır. Beləliklə, Vidadi müəllim ötən 36 illik pedaqoji fəaliyyəti ərzində istehsalat təlimi ustası, ixtisas fənn müəllimi, baş usta, tədris- istehsalat işləri üzrə direktor müavini işləmiş və 1988-ci ildən isə direktor vəzifəsində çalışır.

Vidadi müəllim həmişə özünütəhsilə xüsusi fikir vermiş və təhsilini artırmaqda davam etmişdir. 1971-ci ildə Odessa Dəniz Donanması Mühəndisləri İnstitutuna qəbul olunmuş və mühəndis-mexanik ixtisasına yiyələnmişdir. İqtisadiyyat sahəsinə olan marağı onu Moskva Kooperasiya İnstitutuna gətirmiş və 5 illik təhsildən sonra iqtisadçı-mühasib ixtisasını almış, sonralar Zaqafqaziya Komsomol Məktəbini və Marksizm-Leninizm Universitetini də bitirmişdir.

Vidadi müəllim eyni zamanda yaradıcılıq işləri ilə də məşğul olur. Özünün dediyi kimi, bu da onu mərhum atasından qalmış miras-dır. O, təhsilimizin problemləri ilə bağlı onlarla elmi məqalənin müəllifidir. Onun məqalələri "Gənc fəhlə", "Azərbaycan məktəbi", "Pedaqoji tədqiqatlar", "Sənətkar" və digər jurnallarda nəşr edilmiş, müxtəlif qəzetlərdə isə siyasi və ictimai mövzularda məqalələri çap olunmuşdur. "Sənətkar" jurnalının 40 illik yubileyinə həsr olunmuş müəllimlik müsabiqəsinə I yeri tutaraq Təhsil Nazirliyinin diplomuna layiq görülmüşdür. O, eyni zamanda bir neçə tədris proqramının və metodiki tövsiyələrin müəllifidir.

Vidadi müəllim bədii yaradıcılıqla da məşğul olur. Onun şeirlər kitabı artıq nəşr edilmək üçün hazırdır.

İşgüzar və səmərəli fəaliyyətinə görə Vidadi müəllim bir neçə dəfə Azərbaycan Respublikası Təhsil Nazirliyinin, Respublika Həmkarlar İttifaqları Konfederasiyasının və bir sıra təşkilatların fəxri fərmanları ilə təltif olunmuşdur. Təhsil sahəsindəki uğurlarına görə 2011-ci ildə "Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif edilmişdir.

Vidadi müəllim ictimai işlərdə də fəal olmuş, həmişə dövlət və xalq mənafeyini hər şeydən üstün tutmuşdur. Bu keyfiyyətlərinə görə 1990-1995-ci illərdə Bakı şəheri Nizami rayon sovetinin deputatı və 1999-2004-cü illərdə Sabunçu rayonu Bakıxanov bələdiyyəsinin üzvü seçilmişdir. Həmin illərdə Bakıxanov bələdiyyəsinin "Hüquq məsələləri" daimi komissiyasının sədri olmuşdur.

Vidadi müəllim təhsil nazirinin əmri ilə peşə məktəblərinin (lisey-lərinin) akkreditasiyası komissiyalarında sədr və komissiya üzvü kimi fəal iştirak edir. Mən bunu birlikdə fəaliyyət göstərdiyimiz komissiyaların işi zamanı müşahidə etmişəm. O, işgüzar, prinsipial, intizamlı və bilikli olduğu qədər də sadə, yoldaşlıqda mehriban və şən əhvalruhiyyəyə malik bir insandır. Onunla Mingaçevirdə, Xaçmazda, Balakəndə, Ağdamda, Cəlilabadda və Zaqatalada birgə ezamiyyədə olduğum günlərdə onu daha da yaxından tanıdım. Peşə təhsili sahəsini dərindən bilən, siyasi savadlı, vətənə və millətə bağlı bir ziyalı olduğu qədər dostluğa da sadaqətli olduğuna bir daha əmin oldum.

Vidadi müəllimin rəhbərlik etdiyi 14 nömrəli Bakı Peşə Liseyinin mühəndis-pedaqoji işçiləri onun haqqında ancaq xoş sözlər söyləyirlər. Çünki o, hamını diqqətlə dinləyir, onların qayğısına qalır və imkan daxilində problemlərinin həlli üçün köməklik göstərir. Şagirdlər və validleynlər arasında xüsusi hörmətə malikdir.

Vidadi müəllim gözəl aile başçısıdır: 4 övladı və 4 nəvəsi vardır. Oğlu İlqar ali təhsillidir, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının bakalavr və magistr pillələrini bitirmişdir. Karate idman növü üzrə 2-ci dan qara kəmər almışdır. İdman ustasıdır. Bakı Sənaye Pedaqoji Texnikumunda müəllim işləyir.

Qızı İradə ali pedaqoji təhsillidir. Bakı Qızlar Universitetinin bakalavr pilləsini bitirmişdir. Bakı Sənaye Pedaqoji Texnikumunda müəllim işləyir.

Qızı Nailə Azərbaycan Dillər Universitetinin bakalavr və magistr pillələrini bitirmişdir. Bakı Sosial İqtisad Kollecində müəllim işləyir.

Qızı Sevinc Azərbaycan Müəllimlər İnstitutunun bakalavr pilləsini bitirmişdir. Bakıdakı 90 nömrəli orta məktəbdə informatika müəllimi işləyir. Bunları sadalamaqla Vidadi müəllimin rəhbərlik etdiyi ailənin ziyalı, nümunəvi bir ailə olduğunu oxucuların nəzərinə çatdırmaq istəyirəm.

Bu gün Vidadi Quliyev ömrünün 60-cı baharını yaşayır. Bu yaş Vidadi müəllimə çox yaraşır. Çünki bu gün o, sözün əsl mənasında, kamillik dövrünü yaşayır. Onun çöhrəsində altımışın müəyyən cizgiləri görünsə də o, hələ enerjili, odlu-alovlu bir gənc təsiri bağışlayır insana. Çünki dağ vüqarlı ellərin izi var onda. Mən ümidvaram ki, Vidadi Quliyev bundan sonra da dövlətimiz və qədirbilən xalqımız üçün yorulmadan çalışacaq, neçə belə yubiley illərinin səadətini onu istəyənlərə bəxş edəcəkdir.

Çoxsaylı peşə təhsili işçiləri adından Vidadi müəllimi yubiley münasibətilə təbrik edir, ona uzun ömür, cansağlığı və işlərində müvəffəqiyyətlər arzulayıram.

Şahbaz BALAKİŞİYEV,
"Sənətkar" jurnalının baş redaktoru

Dünya və Avropa çempionatlarının mükafatçısı

Məmmədzadə Günay Vüqar qızı 2000-ci ildə Bakı şəhərində ziyalı ailəsində anadan olub. 5 yaşından 1 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər Şahmat-Dama Məktəbində şahmatla məşğul olur. 2006-2007-ci illərdə Azərbaycan çempionu və beynəlxalq turnirlərin qalibidir. O, dəfələrlə dünya və Avropa çempionatlarının mükafatçısıdır. Bakıdakı 6 nömrəli "İntellekt" liseyinin VI sinif şagirdidir.

Günay Məmmədzadə özü haqqında bunları əlavə etdi:

-Ailəmizin şahmata olan həvəsi və sevgisi böyükdür. Anam həmişə istəyib ki, mən məşhur şahmatçı olum.

Yüksək idman nailiyyəti olan uşaqlarla birlikdə çalışıram. Müəllimim yığma komandanın üzvü, beynəlxalq grossmeyster Rəsul İbrahimovdur. 2005-ci ildən şahmatla məşğul oluram. İlk dəfə 2007-ci ildə Azərbaycan çempionatında sərkizyaşlı qızlar arasında keçirilən yarışda III, IV yeri, 2007-ci ildə isə Gürcüstanın Batumi şəhərində keçirilən sərkizyaşlı qızlar arasında Avropa çempionatında III yerə çıxmışam. Həmin ili Türkiyənin Antalya şəhərində keçirilən dünya çempionatında II yeri tutmuşam. 2008-ci ildə Batumidə keçirilən dünya çempionatında I yerə çıxaraq üçrəngli bayrağımızı zirvəyə qaldırmışam. Həmin ildə Vyetnamın Vunqtau şəhərində sərkizyaşlı qızlar arasında keçirilən dünya çempionatında III, 2009-cu ildə isə 10 yaşlı qızlar arasında Türkiyənin Antalya şəhərində keçirilən dünya çempionatında I yerə çıxmışam. 2009 -cu ildə Gənclər və İdman Nazirliyi tərəfindən keçirilən "Yaxşıların yaxşısı" nominasiyasının qalibi, 2007, 2008, 2009-cu illərdə Təhsil Nazirliyinin keçirdiyi "İlin ən yaxşı şahmatçısı" nominasiyasında birinci yeri tutmuşam. 2011-ci ildə qadınların Bakı çempionatında II yerin sahibi, sonralar dəfələrlə Avropa çempionu və beynəlxalq turnirlərin qalibi olmuşam. Nəhayət, 2012-ci ildə Rumıniyanın Yası (Iassi) şəhərində 36 ölkənin iştirakı ilə keçirilən məktəblilər arasında şahmat üzrə VIII dünya çempionatında I yerə çıxaraq dünya çempionu adını almışam.

Rəsul İbrahimov -Yığma komandanın üzvü, beynəlxalq grossmeyster:

- Günayın digər idmançılardan fərqi daha çox elmli və həmişə şahmata olan həvəsinin çox olmasıdır. Onun oyun səviyyəsi, ağıllı şəkildə düşünərək addım atmağı başqa idmançılara nisbətən daha çoxdur. O, digərlərindən öz istedadı ilə də fərqlənir. İdmançının gələcək uğurları da onun öz üzərində mütəməmadi çalışması və məqsədinə çatmaq üçün mübarizə aparmasından asılıdır. İdmançı əgər məşqlərə gün ərzində 3 saat vaxt ayırırdısa, kifayət qədər uğur qazandıqdan sonra 6 saat vaxt ayırmalıdır. Bu şəkildə davam etməsə, gələcəkdə onun üçün irəli getmək çox çətin olacaq. Amma mən ümid edirəm ki, Günaya qazandığı uğurlar stimul verəcək ki, gələcəkdə də o, yüksək yaş qruplarında çempion olub ölkəmizə medallar gətirib bizi sevindirəcək və dünyada qadınlar arasında fanınmış şahmatçı olacaq. Hər bir müəllim kimi mən də yetirməmin uğurlarını öz uğurum kimi qiymətləndirirəm.

Natiq Ələkbərov - 1 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər Şahmat-Dama Məktəbinin direktoru:

- Günayın əldə etdiyi uğurlarına hamıdan çox mən sevinirəm. Onun bütün yarışlarında iştirak etmiş rəhbər müəllim kimi onu deyə bilərəm ki, Günay Məmmədzadə çox təcrübəli və güclü şahmatçıdır. O, öz yolu, öz oyun tərzi ilə digər idmançılardan fərqlənir. Arzumuz Günayı qadınlar arasında dünya və olimpiya çempionu görməkdir.

Gülşən Orucova - Bakıdakı 6 nömrəli "İntellekt" məktəb-liseyin direktoru:

-Sağlam bədəndə sağlam ruh olur. Bu, həqiqətən belədir. Qeyd etmək istərdim ki, 6 nömrəli məktəb tarix boyu öz idmançıları ilə də tanınıb. Təhsil ocağının məzunları arasında həmişə ölkəmizi beynəlxalq turnirlərdə layiqli təmsil edən idmançılar olub. Belə idmançılardan biri də Günay Məmmədzadədir. Günay və qardaşı bizim məktəbin şagirdidir. Hər bir şagirdin istənilən sahədəki uğru məktəbdən və valideyndən asılıdır. Günayın valideynləri övladlarını müasir dövrün tələblərinə uyğun şəkildə tərbiyə etir, yetişdirirlər. Günay şahmatla bərabər dərslərini də müvəffəqiyyətlə yerinə yetirir. O, bizim məktəbin fəxridir. Həqiqətən də çox tərbiyəli, bacarıqlı, məktəbin adını ucaldan bir şagirddir.

Arzum və istəyim odur ki, Günayın uğurları bundan sonra daha da artsın və o, şahmat tacını odlar yurdu Azərbaycana gətirsin.

Rəşad ZİYADOV

"Göyərçin"in uşaqlara növbəti hədiyyəsi

Tanınmış şair, ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor Rafiq Yusifoğlunun yaradıcılığının ən aparıcı qollarından biri uşaq ədəbiyyatıdır. Onun uşaqlar üçün yazdığı əsərlər həmişə sevilə-sevilə oxunur. Rafiq müəllim bir sıra dərs vəsaitlərinin, o cümlədən birinci siniflər üçün "Ana dili" dərsliyinin müəllifidir. Onun şeirləri, hekayələri, nağılları orta məktəb dərsliklərinin, müntəxəbat, əlavə oxu kitablarının bəzəyidir desək, yanılmarıq. Ona görə ki, uşaq psixologiyasını gözəl bilən R.Yusifoğlu onların maraq dairəsini çox gözəl bilir. Onun "Göyərçin"in kitabxanası seriyasından ayrı-ayrı vaxtlarda nəşr olunan "Söz çəməni", "Zamanın qatarı", "Yollar", "Günlərimiz, aylarımız", "Ana dilim" və s. şeir kitabları həm balaca oxucular, həm də mütəxəssislər, müəllimlər və tərbiyəçilər tərəfindən böyük maraqla qarşılanıb. Müəllimlər etiraf edirlər ki, məktəbdə tədbirlərin hazırlanmasında bu kitablar həmişə onların köməyinə gəlir.

Bu günlərdə Rafiq Yusifoğlunun həmin silsiləni tamamlayan yeni bir kitabı işıq üzü görüb. Həmin kitab **"Quşlar dünyası"** (Bakı, 2012) adlanır. Kitabın annotasiyasında oxuyuruq: "Əziz balalar, müəllimlərin, tərbiyəçilərin xahişi ilə jurnalımızın ayrı-ayrı saylarında verdiyimiz şeirləri bir yerə topladıq. İstədik ki, həm quşlar haqqında yazılan şeirləri oxumaqla, həm də onların şəkillərinə baxmaqla qanadlı dostlarımızı yaxından tanıya, onları bir-birindən fərqləndirə bilərsiniz".

Doğrudan da, qanadlı dostlarımızı balalarımıza tanıtmaq olduqca vacib məsələlərdən biridir. Rafiq Yusifoğlunun şeirlərində hər quşun istər zahiri görünüşü, istərsə də onların "xasiyyəti" haqqında verdiyi poetik cizgilər çox maraqlı və düşündürücüdür. Məsələn, "Qaranquş" şeirində oxuyuruq:

Yenə aydın səmadə
Qaranquşum süzəcək.
Elə bil ki, qayçıdır
Onun haçə quyruğu,
Buludları kəsəcək...

Bu tipli bənzətmələr şairi quşlar haqqında ümumi söz söyləməkdən uzaqlaşdırır. "Bülbül" şeirində şair bülbülü müğənniyə, qızılgülü isə mikrofona bənzədir. "Kəklik çıxıb daşlığa, qayalar çiçəkləyib" ifadəsi də maraqlıdır, balaca oxucuda kəkliyin gözəlliyi haqqında müəyyən təsəvvür yaradır. "Zığ-zığ" haqqındakı bu misralar da həmin quş haqqında müəyyən təsəvvür yaradır:

Niyə hay-küy salırsan,
Elə bil ki, dardasan.
Gizlənsən də, cığırtın
Xəbər verir hardasan.

Kitabda yetmişə yaxın quş haqqında poetik məlumat verilir. Hər quşun özünəməxsus cizgilərinin tapılıb ön plana gətirilməsi şeirlərin bədii dəyərini, onların təsir gücünü xeyli dərəcədə artırır. Hər şeirin yanında quşların rəngli şəkillərinin verilməsi bədii mətnlə fotonun müqayisəsi imkanı yaradır ki, bu da pedaqoji baxımdan çox əhəmiyyətlidir. Kitabın tərtibatında rəssamlardan İlqar Mehdiyev və Fidan Axundovanın rəsmlərindən də istifadə olunub. Ümid edirik ki, Rafiq Yusifoğlunun digər kitabları kimi "Quşlar dünyası" adlı kitabı da balaca oxucularımızın xoşuna gələcək, müəllim və tərbiyəçilərin yaxın köməkçisinə çevriləcək.

Günel ALMAZ,
"Göyərçin" jurnalının baş ədəbi işçisi, "Xan qızı Natəvan" mükafatının laureatı